# OPTİMAL GEOSİYASİ FƏALİYYƏTİN ŞƏRTLƏRİ

**V.C.HACIYEVA**
*Azərbaycan Dövlət Universiteti*

Geopolitika dövlətin coğrafi vəziyyəti ilə bağlı strateji problemləri əks etdirdiyindən siyasətin ən ciddi və önəmli sahəsidir. O, xarici siyasətin vacib, həm də ölkənin daxili durumu ilə daha sıx bağlı olan hissəsidir. Bu səbəbdən də, geopolitika haqqında müfəssəl informasiyanın olması siyasi fəaliyyət üçün son dərəcə vacib və zəruri amildir. Məhz geopolitika haqqında informasiyaya tələbatın ödənilməsi istər iqtidar, istərsə də müxalifət cəbhəsindən olan siyasətçilərin fəaliyyəti üçün önəmlidir. Bu qəbildən olan informasiyaya tələbat regional münaqişələr dövründə, dövlətin təhlükəsizliyi problemləri yarandığı zamanlarda daha da güclənir. Ümumilikdə isə geosiyasi mənafelər şəbəkəsi haqqında informasiyaya tələbatın yüksək səviyyədə olması onun çoxşaxəliliyi, mürəkkəbliyi, zənginliyi, sürəkliliyi ilə izah edilir. Əlbəttə, bu məsələdə dövlətin geosiyasi durumunun spesifikası və tarixi məqam da rol oynayır. Bunlardan asılı olaraq geopolitika dövlətin siyasətində aparıcı və ya nisbətən az önəmli bir sahə ola bilər. Birinci halda geosiyasi mənafe haqqında ətraflı informasiyanın vaxtında, dəqiq əldə olunması dövlətin təhlükəsizliyi və milli maraqlar baxımından zəruridir. Geosiyasi informasiya tələbatının ödənilməsi təkcə baş verməkdə olan hadisələrin təhqiqi vasitəsilə ödənilmir, eyni zamanda, tarixi, sosioloji, coğrafi, iqtisadi, hərbi, siyasi və digər problemlərin elmi araşdırılması üçün elmi mərkəzlərin yaradılması və fəaliyyəti ilə həyata keçirilir.

İndi isə dövlətin geopolitikasının qurulması və onun səmərəli şəkildə həyata keçirilməsi üçün lazım olan informasiya növlərini və onlardan istifadə yollarını araşdıraq.

### *Ölkənin coğrafi mövqeyinin spesifikası, strateji̇liyi və regional əhəmiyyəti*

Ölkənin coğrafi mövqeyinin spesifikası, strateji̇liyi və regional əhəmiyyəti haqqında informasiyalar dövlətin bütövlükdə xarici siyasətinin əsaslarını yaratmaqla yanaşı siyasətin bütün səviyyələrində özünün aparıcı rolunu saxlayır. Çünki məhz həmin göstəricilər dövlətin strateji maraqlarını formalaşdırır, digər dövlətlərin də strateji maraqlarını əsaslandırır. Bütün bu maraqların toqquşması və ya üst-üstə düşməsi isə nəticədə dövlətin xarici siyasətinin və beynəlxalq münasibətlərinin əsasını təşkil edir.

Ölkənin geosiyasi göstəriciləri sırasına onun adada və ya adalarda yerləşməsi, yaxud daxil olduğu materik, region, quru sərhədləri, dəniz yolları, ticarət yollarının üstündə olub-olmaması, ərazisi, təbii ehtiyatları, iqlimi, florası, müxtəlif təbii fəlakətlər zonasına aidiyyəti, əhalisi,

etnodemoqrafik göstəriciləri və s. aiddir. Bu göstəricilər və onların yaratdığı imkanlar və problemlər haqqındakı informasiyalardan, yuxarıda söylədiyimiz kimi, ən müxtəlif siyasi məsələlərdə istifadə olunur. Dövlətin hərbi siyasətinin qurulması və həyata keçirilməsi üçün ölkənin yerləşdiyi regionda hərbi blokların olması, qonşu ölkələrin münasibəti, potensial düşmən dövlətlərin siyasi, iqtisadi və hərbi durumu, qüvvələr vektorlarının paylanması, ölkənin dənizə çıxışı, sərhədləri, iqlimi haqqında informasiyaların olması zəruridir. Bu göstəricilər dövlətin hərbi-siyasi bloklarla münasibətindən, ayrı-ayrı dövlətlərlə hərbi-siyasi müqavilələrindən, hərbi ticarətindən tutmuş hərbiyə ayrılan dövlət büdcəsinə, vətəndaşların hərbi-siyasi ruhu və hazırlığına qədər bütün prosesləri müəyyənləşdirir. Həmin göstəricilər haqqında informasiyalar dövlətin iqtisadi siyasətinin qurulması üçün də (regionla bağlı iqtisadi layihələrin yaradılması, həyata keçirilməsi, onlarda iştirak, investisiyaların cəlb olunması, bir sözlə, regionla bağlı və ölkə daxilində aparılan iqtisadi siyasət) lazımdır. Ölkənin təbii ehtiyatları, onların həcmi, ölkənin flora və faunası, tranzit imkanları, yəni digər rayonlarla əlaqəsi, dəniz, quru yolları haqqında informasiyalar da dövlətin iqtisadi siyasətinin optimal qurulması üçün əhəmiyyətlidir.

Ölkənin geosiyasi göstəriciləri onun digər dövlətlərlə hərtərəfli inteqrasiyası və əməkdaşlığı üçün də zəmin yaradır.

***Qonşu dövlətlərin maraqları və regional iqtisadi, siyasi, hərbi durumu***

Siyasətin qurulub reallaşdırılması üçün qonşu dövlətlər haqqında olan informasiyalar həmin dövlətlərin coğrafi mövqeyindən tutmuş ictimai-siyasi vəziyyətinə qədər bütün sahələri əhatə etməlidir. Xüsusilə də, qonşu dövlətlərlə mübahisəli məsələlər mövcud olduqda, dövlətlərin ortaq strateji maraqları olduqda göstərilən qəbilli informasiyaların əhəmiyyəti daha da artır.

Ölkənin daxili və xarici siyasətinin məzmun və yönümünün müəyyənləşdirilməsində önəmli rol oynayan geosiyasi informasiya dedikdə, biz aşağıdakıları nəzərdə tuturuq:

1) geosiyasi məkana daxil olan ölkələrin təbii coğrafi vəziyyəti haqqında informasiya. Buraya ölkənin təbii ehtiyatları (maddi, energetik və s.), coğrafi mövqeyi (quru və su sərhədləri, ölkə ərazisinin strateji əhəmiyyəti, iqlimi, quru və dəniz yolları ilə zənginliyi və s.) daxildir;
2) ölkənin iqtisadi imkanları, iqtisadi fəaliyyətin əsasını təşkil edən iqtisadi münasibətlər sistemi, ölkə iqtisadiyyatının inkişafında istifadə edilən üsul və metodların səmərəliliyi, onun «ətraf coğrafi mühitə təsiri» [6, 15], iqtisadi bölgü münasibətlərinin tipi və deməli, ölkədə ədalət prinsipinin əhatə dairəsi və s. aiddir;
3) regiona daxil olan ölkələrin siyasi mənzərəsi, ölkələr arasında mövcud olan qüvvələr vektorlarının təşkil etdiyi paylanma şəbəkəsi, siyasi maraqların uyğunluq dərəcəsi [7, 142], ölkədaxili siyasi quruluşların tipi və siyasi rejimlər, hər bir ölkənin daxilində siyasi qüvvələr arasındakı münasibətlərin xarakteri daxil edilməlidir;
4) geosiyasi məkana daxil olan ölkələrin demoqrafik vəziyyəti

haqqında olan informasiya. Buraya əhalinin orta yaş həddi, təbii və süni əhali artımı meylləri, məcburi və ya qeyri səbəblərdən doğan miqrasiya prosesləri, əhali artımı ilə ölkələrin iqtisadi vəziyyəti arasındakı nisbətlər və s. daxildir;

5) sözügedən ölkələrdə mövcud olan dini-konfessional mənzərə haqqında olan informasiya. Bu qəbildən olan informasiyalar dini mənsubiyyətinə görə əhalinin nisbətinin müəyyənləşdirilməsi, dini təsisatların (məscidlərin, kilsələrin, sineqoqların, məbədlərin və s.) və onların rəhbərlərinin tutduqları mövqeyin zorakılığa və ya tolerantlığa əsaslanması, dini fanatik cərəyanların mövcudluğu, dinin ölkə siyasətinə və həyatın digər sahələrinə nüfuz edib-etməməsi, dinlə elm və mədəniyyət arasındakı münasibətlər və s.-ni əhatə etməlidir;

6) nəhayət, bu qəbildən olan informasiyalar bölgədəki ölkələrin hərbi vəziyyətini, gücünü, hərbi doktrinasının xarakterini, ölkələr arasındakı hərbi münaqişələrin olub-olmamasını və s.-ni ehtiva edir.

Sadaladığımız bütün bu informasiya növlərinin kəmiyyətindən və keyfiyyətindən asılı olaraq, ölkənin milli maraqları zəminində daxili və xarici siyasət qurulmalıdır. Bu informasiya növlərinin heç birindən ölkədaxili siyasi qüvvələrin – iqtidar və müxalifət – siyasi məqsədlərinin reallaşması üçün, üstəlik, siyasi liderlərin ambisiyaları naminə istifadə edilməməlidir.

***Böyük dövlətlərin regiondakı maraqları və siyasətləri***

Böyük dövlətlərin (superdövlətlərin) geostrateji maraqları və bu əsasda qurulan siyasi fəaliyyətləri ölkələrin geosiyai mənafelərinə əsaslı təsir edən amildir. Təbii ki, regionun və regiondakı siyasi proseslərin onlar üçün önəmindən asılı olaraq bu dövlətlərin rolu, ölkələrə təsir və təzyiqi güclü və ya zəif ola bilər. Əslində fövqəldövlətlərin regional geosiyasi duruma təsirinin qarşısını almaq qeyri-mümkündür. Bu səbəbdən də, region dövlətlərinin öz maraqlarını fövqəldövlətlərin geosiyasi mənafeyinə uyğunlaşdırması bir zərurətə çevrilir. Azərbaycanın neft siyasətində güdülən məqsədlərdən biri də məhz Qərbin maraqlarını nəzərə almaqdan ibarətdir. Güclü dövlətləri regiona cəlb etmək yolu ilə onların maraqlarından və siyasətlərindən düzgün istifadə etməklə ölkənin geosiyasi maraqlarının təminatına çalışmaq həmin dövlətlərin maraqları və siyasi fəaliyyətləri haqqında ətraflı məlumata ehtiyac yaradır.

Böyük dövlətlərin regiondakı maraqları üç blokda formalaşırlar: strateji, iqtisadi və siyasi. Böyük dövlətlərin strateji maraqları həm regiona, həm də bir ölkənin regiondakı mövqeyinə yönələ bilir. Deməli, həm regionun strateji əhəmiyyəti, həm də ölkənin regiondakı xüsusi strateji əhəmiyyəti haqqında informasiyaya malik olmaq vacibdir.

Böyük dövlətlərin regiondakı iqtisadi maraqları regionun təbii ehtiyatlarından, ölkənin tranzit imkanlarından, regionla bağlı iri miqyaslı iqtisadi layihələr və böyük həcmli ticarət əlaqələrinin reallaşmasında iştirak etməkdən, bu məqsədlər üçün kapital qoyuluşundan və s. ibarətdir. İqtisadi maraqlar, bir tərəfdən, iqtisadi və siyasi əlaqələrin inkişafına təkan verirsə, digər tərəfdən, həmin əlaqələrin formalaşması və inkişafının nəticəsi kimi qiymətləndirilir. Siyasətə təsiri baxımından bu məqamlar arasında müəyyən fərqlər müşahidə edilir. Faktlar göstərir ki,

böyük dövlətlərin iqtisadi maraqları əksər hallarda siyasi maraqlarını üstələyir. Qarabağ münaqişəsinə, ərəb – İsrayıl qarşısıdurmasına və s. hadisələrə ABŞ-ın, Rusiyanın, Avropa dövlətlərinin siyasi mövqelərində aydın görünən ikili standartlar buna əyani misaldır.

Məhz ona görə də, ölkənin xarici və daxili siyasətini formalaşdırarkən ətraf dövlətlərin, xüsusilə də, super dövlətlərin maraqlar şəbəkəsi haqqında ətraflı və dərin analitik informasiyaya malik olmaq zəruridir. Məhz bu bilgi əsasında həmin dövlətlərin siyasətindəki uyarsızlıqları, «məntiqsizlikləri» izah etmək mümkündür. Bu mürəkkəb maraqlar və siyasətlər çarpazlaşmasında dövlətin tarazlı siyasətinin qurulması və reallaşdırılması üçün danışdığımız informasiyaya tam sahib olmaq zəruridir.

Böyük dövlətlərin regiona və ya regiondakı bir dövlətə olan marağı milli və dini zəmində də ola bilər. Bu tip maraqlar digərlərinə nisbətən həssaslıq tələb edir. Hər iki halda maraqlar ciddi sosial qüvvələrlə (millət, dini konfessiyalar) bağlı olduqlarına görə daha çox diqqəti cəlb edirlər.

Bir sözlə, ölkənin geosiyasi mənafeyinin optimal müəyyənləşdirilməsi ətraf dövlətlərin, xüsusilə də, fövqəldövlətlərin maraqlar cəmini, həmin maraqlar arxasındakı sosial qüvvələrin nisbəti və paylanması şəbəkəsini, maraqların təmərküzləşdiyi ölkələrdəki ictimai rəyi əsaslı surətdə öyrənməyi zərurətə çevirir.

Böyük dövlətlərin regiondakı maraqlarını, maraqların həddini və arxasındakı gücü, maraqlar arasındakı nisbəti araşdırdıqdan sonra onların regiondakı siyasi fəaliyyətlərinin konturlarını cızmaq üçün həmin dövlətlərin xarici siyasətlərinin əsas prinsiplərini müəyyənləşdirmək lazımdır. Bu prinsiplər praqmatik, ideoloji və imperialist xarakterli olmaqla siyasi ənənələr və ya subyektiv amillər əsasında formalaşır. Prinsiplərin hansının siyasətdə aparıcı olduğunu bilmək həmin dövlətin bütövlükdə siyasətini proqnozlaşdırmağa imkan verir.

***Geopolitikada daxili amillər***

Biz daxili və xarici siyasətin qarşılıqlı asılılığı, lokal, regional və qlobal şərtlərin siyasətin bütün sahələrində oynadığı rol haqqında bəhs etmişik. Geopolitika həmin asılılıqda lokal, regional və qlobal şərtlərin intensiv təsir göstərdiyi mürəkkəb və çoxçalarlı sahədir. Bu mürəkkəblik onunla bağlıdır ki, daxili və xarici amillərin təsir həddini ayırmaq qeyri-mümkündür. Onlar elə çulğalaşmış formada təsir göstərirlər ki, hansının hansı məqamda daha artıq təsir etdiyini müəyyənləşdirmək xeyli çətindir.

Geopolitikanın müəyyənləşməsinə və formalaşmasına təsir edən ölkədaxili amillər sırasına ölkənin iqtisadi və hərbi sahədəki durumu, iqtisadi potensialı, iqtisadi inkişaf səviyyəsi, əhalinin sosial-iqtisadi vəziyyəti və s. aid edilir. Bütün bu amillər dövlətin sərmayələr qoymaq, regional layihələr həyata keçirmək, xarici sərmayələri regiona cəlb etmək qüdrətini göstərməklə yanaşı onun geosiyasi kursunun formalaşması və reallaşmasına güclü təsir edirlər. Həmin amillər nə qədər güclü olarsa, onlardan nə qədər səmərəli istifadə edilərsə geosiyasi tədbirlər o qədər uğurlu olar.

Ölkənin geosiyasi mənafeyinə təsir edən amillərdən dövlətin daxili siyasətini, dövlətin tipini, ideologiyasını, siyasi rejimi, «insana verilən azadlıqları» [3, 13-14] da göstərmək olar.

Ölkənin geosiyasi mənafeyinin təminatı dövlətin fəaliyyət sferasına aid olmasına baxmayaraq ayrı-ayrı siyasi qrupların və siyasi liderlərin fəaliyyətlərinin də təsirinə məruz qalır. Bu təsir onların regionda maraqları olan ölkələrlə qurduqları müxtəlif səviyyəli və müxtəlif məramlı əlaqələr, geosiyasi məsələlərdə tutduqları mövqe, cəmiyyətdə apardıqları məqsədyönlü iş vasitəsilə həyata keçirilir və ictimai rəyin formalaşmasına yardım edir ki, bu da geopolitikanın optimal şəkildə reallaşması üçün çox önəmlidir. İctimai rəydəki sapmalar və çaşqınlıq dövlətin geosiyasi mövqeyi və maraqları üçün son dərəcə təhlükəli ola bilər. 1988-ci ildən sonra Azərbaycanın siyasi həyatında baş verən olaylar bu fikri təsdiqləyir. Ona görə də, siyasətin optimallığını nümayiş etdirən geosiyasi məsələlər haqqında qərarlar qəbul edərkən ictimai rəy amilinə olduqca ciddi yanaşmaq tələb olunur.

Ölkənin geosiyasi mənafeyi haqqında informasiya regional münaqişələr dövründə xüsusilə aktuallaşır. İstər ölkə daxilində milli, dini, sosial zəmində, istərsə də dövlətlərarası münasibətlərdə yaranan münaqişələr həm dövlətlərin özləri, həm də dünya birliyi üçün təhlükə yaratmaqla siyasi, iqtisadi, hərbi, mədəni əlaqələrə və deməli, milli maraqlara və regional inkişafa ciddi əngəllər törədir. Hərbi münaqişələr xüsusilə ağır nəticələr verir. Şəhərlərin, kəndlərin, sənayenin, kənd təsərrüfatının dağılması, münaqişə ərazisində ekoloji şəraitin kəskin ağırlaşması, ölənlər, qaçqınlar və s. bunu aydın göstərir. Münaqişə şəraitində ölkənin geosiyasi mənafe və mövqeyini mümkün qədər optimal müəyyənləşdirmək üçün aşağıdakı amillərin əsaslı surətdə öyrənilməsi və əldə edilən informasiyadan siyasətin formalaşdırılması və reallaşdırılmasında maksimum istifadə etmək zəruridir:

- münaqişənin meydana gəlməsinin obyektiv və subyektiv səbəbləri;
- münaqişədə olan tərəflərin güddükləri əsas məqsəd;
- münaqişə tərəflərinin sosial, etnik, dini, intellektual və s. tərkibi, münaqişəyə cəlb edilmiş qüvvələrin özəl məqsədləri;
- qarşı tərəfin əhalisinin mentaliteti, demoqrafik və milli tərkibi, ölkədəki milli münasibətlərin xarakteri və səciyyəvi əlamətləri;
- qarşı tərəfin (ölkənin) iqtisadi, sosial, siyasi, hərbi və s. potensialı, bu potensialın reallaşdırılması imkanı;
- münaqişədə maraqlı olan qeyri-dövlətlərin mənafe və məqsədləri, tərəflərə münasibətləri, münaqişənin onların geosiyasi maraq və mənafelərinə uyğunluq dərəcəsi [9, 41-44];
- münaqişənin nizamlanmasında qərəzsiz mövqelərdən çıxış edən qüvvələr və onların qərəzli qüvvələrlə nisbəti;
- nəhayət, ölkənin daxili və xarici siyasətinin regional və qlobal geosiyasi mənzərədə tutduğu yer və optimallıq səviyyəsi.

Göstərdiyimiz bu sahələrə aid kafi və zəruri olan informasiyaları əldə etmədən məqsədyönlü, stabil, oriyentasiyalı geopolitik siyasət qurmaq mümkün deyildir.

İndi də ölkənin geosiyasi mənafeyi haqqında əldə edilən geniş informasiyadan optimal siyasətin qurulmasında istifadə mexanizminə nəzər salaq.

Geosiyasi fəaliyyətdə yuxarıda sadalanan informasiyaların hər biri müxtəlif məqamlarda bu və ya digər səviyyədə önəmli rol oynayır. Bu

prosesin əsas mərhələləri informasiyanı toplamaq, məqsədəuyğun prinsiplər əsasında işləmək və sistemləşdirmək [4, 108], saxlamaq və effektli şəkildə istifadə etməkdən ibarətdir. Göstərilən bu prosedurаların həyata keçirilməsi siyasətin hər bir səviyyəsində geosiyasi fəaliyyətin hansı informasiyalar əsasında qurulması zərurətini yaradır.

Fikrimizi ilk növbədə geopolitikanın konseptual səviyyəsində nəzərdən keçirək. *Geopolitikanın konseptual əsasını coğrafi və etnodemoqrafik durum haqqındakı informasiyalar təşkil edir.* Ona görə ki, məhz coğrafi və etnodemoqrafik durum geosiyasi maraqları formalaşdırır və onların xarakteri və yönünü müəyyənləşdirir. Bəzən milli maraqlar dövlətin tipindən, ideoloji yönümündən və siyasi rejimdən asılı olmayaraq geosiyasi konsepsiyanın əsas prinsiplərini müəyyən edir. Məsələn, Yunanıstanın Türkiyəyə olan məlum münasibətinin əsasında konkret problemlər, ciddi və strateji maraqlar yox, tarixən yaranmış milli kompleksdən doğan maraqlar durur. «Bu gün Türkiyə ilə Yunanıstan arasında məsələnin özünə baxıldığında, gerçəkdə bir problem olmaması gərəkdir. Çünki Türkiyə Yunanıstana verə biləcəyi hər şeyi vermişdir. Hətta o qədər vermişdir ki, Yunanıstanı ta içlərinə qədər soxmuşdur. Ege adaları və Lozanda tanınan haqlar Yunanıstanı bir anlamda ala biləcəyi uc nöqtələrə gətirmişdir. Buna rəğmən Türkiyə ilə Yunanıstan arasında sürəkli məsələ vardır. Bu məsələnin özü Ortodoks kilsəsinin bəsləyib suladığı Meqola ideyasıdır. Bu, əslində, Qərbin Türkiyənin Orta Şərqdə hakimiyyət qurmasına əngəl çıxartmaq üçün ortaya atdığı duyğusal bir faktordur. Yunanlar bu xəyal ilə Türkiyəyə qarşı qışqırtılmaqda, dolayısı ilə Türkiyə üçün sürəkli bir Yunan problemi yaradılmaqdadır.» [2, 234-235]. Nəticədə bu münasibət Türkiyə üçün ağır siyasi problemlər yaratmaqla bərabər Yunanıstanın özünün də iqtisadi, sosial, elmi, mədəni və s. sahələrdə inkişafına əngəllər törədir. Beləliklə, dövlətin geosiyasi konsepsiyası coğrafi, etnodemoqrafik parametrlər, tarixi proseslər haqqındakı informasiyalar əsasında qurulur.

Bizim fikrimizcə, hər bir ölkənin geosiyasi konsepsiyasının təməlində dayanan prinsiplərin tələblərinə uyğun olan və onların reallaşmasına xidmət edən geopolitik proqram hazırlanmalıdır. Həmin proqramda ölkənin geosiyasi strateji və taktiki vəzifələri öz əksini tapmalı və həyata keçirilmə mexanizmi dəqiq müəyyənləşdirilməlidir.

Geosiyasi konsepsiyadan fərqli olaraq *geosiyasi proqram əldə edilmiş bütün informasiyaların zəminində, onların analizi əsasında hazırlanmalıdır.*

Geopolitikanın strateji səviyyəsi proqram səviyyəsi qədər ümumilik və əhatəlilik dərəcəsinə malik deyildir.

Geopolitikanın strateji səviyyəsi daha çox risqli olur, bu da informasiya təminatından daha çox informasiyaların düzgün qiymətləndirilməsi və onlardan təyinatına görə effektli istifadə olunması ilə bağlıdır. Strateji planın qurulması zamanı buraxılan səhv aid olduğu problem üçün həlledici rol oynamaqla geosiyasi proqramın da yerinə yetirilməsinə mane olur.

Bütün bu söylədiklərimizdən çıxış edərək Azərbaycan Respublikasının geosiyasi konsepsiyası və geosiyasi proqramı haqqında nələri demək mümkündür:

1) Azərbaycan dövlətinin Cənubi Qafqazda maraqları olan dövlət-

lərlə münasibətində müəyyən stabillik və davamlılıq saxlanmalıdır. Burada gah Qərbə, gah Şimala, gah Cənuba meyllənmənin qabardılmasına yol vermək olmaz;

2) ABŞ və Avropa dövlətləri ilə qurulan siyasi bağlantılar Azərbaycanın geosiyasi mənafelərini tam həcmdə nəzərə almır. Burada səbəb kimi, böyük dövlətlərin regiona təsir və təzyiqlərini, Azərbaycan üçün yaradılmış «Dağlıq Qarabağ» problemini, neft kontraktları bağlanma ərəfələrində yaradılan hakimiyyət böhranlarını, terror hadisələrini və s.-i göstərmək olar. Bütün bunlar kontraktlar bağlanarkən iştirakçı şirkətlərin təmsil etdikləri dövlətlərin qarşısında Azərbaycanın geosiyasi mənafeyindən doğan konkret şərtlər qoyulmasına (məsələn, bu şərtlərdən biri Ermənistan dövlətinin təcavüzkar kimi tanınması və ona qarşı ciddi təzyiqlərin edilməsi olardı) mane oldu. Halbuki, münasibətlər qarşılıqlı maraqların təmin olunması əsasında qurulmalı idi [8, s.44]. Lakin indi məlum olur ki, iqtisadi maraqları kifayət qədər ödənilən dövlətlər Dağlıq Qarabağ münaqişəsi ilə bağlı heç bir obyektiv konkret təşəbbüsdə bulunmurlar;

3) Şimal qonşumuz olan Rusiya dövlətilə qurulan geosiyasi əlaqələrdə də bir harmoniklik və simmetriya olmalıdır. Rusiya dövlətinin ayrı-ayrılıqda Azərbaycana, Ermənistana və ümumiyyətlə, regiona yönəltdiyi siyasi strategiya [5, 350-353], Ermənistanla bağladığı hərbi-siyasi müqavilə, Ermənistana təxminən bir milyard dollarlıq müasir silahın ötürülməsi, Gürcüstanda yerləşən hərbi bazasının bağlanması ilə əlaqədar olaraq külli miqdarda silahın və hərbi texnikanın Ermənistanda yerləşən bazaya köçürülməsi, Ermənistan – Azərbaycan münaqişəsində Rusiya qoşun hissələrinin (məsələn, 366-cı polkun) Ermənistan tərəfində açıq-aydın iştirakı Rusiyanın Cənubi Qafqaza yönəlmiş geopolitikasını müəyyənləşdirən əsas amillərdəndir. Burada, üstəlik, Rusiyanın Cənubi Qafqazdakı iqtisadi maraqlarını da söyləsək, Rusiya dövlətinin nümayəndəsinin Ermənitan – Azərbaycan münaqişəsini tənzimləməklə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədri kimi qalması məqbul deyildir;

4) Türk dövlətlərinin geosiyasi problemlərin həlli məsələsində birləşməməsi və ya birləşə bilməməsi də həmin dövlətlərin və o cümlədən, Azərbaycanın geosiyasi mövqeyinin güclənməsinə imkan vermir. Məsələn, Fransa senatının bədnam «erməni soyqırımı» layihəsini qərarlaşdırması türk dünyasına açıq-aydın bir zərbədir. Türk dövlətlərinin geosiyasi mövqelərinin adekvatlığı onların bu qərara sinxron şəkildə sərt reaksiya vermələrinə əsas olmalı idi. Bu addım sözügedən layihəni müzakirə etmək niyyətində olan dövlətlərə də ciddi bir mesaj olardı. Hesab edirik ki, bununla əlaqədar Azərbaycan dövləti Fransa dövlətinin Minsk qrupunun həmsədrliyindən qəti şəkildə imtina edə bilər;

5) Uzun müddət Azərbaycan dövlətinin diqqətinin məlum 907-ci düzəliş ətrafında mərkəzləşməsi də Ermənistan - Azərbaycan münaqişəsilə bağlı mövqeyimizi müəyyən mənada arxa plana keçirdi. Sanki bizim siyasətimizdə səbəblə nəticə yerdəyişməsi baş vermişdi. Axı bir şey gün kimi aydındır ki, 907-ci düzəliş məhz Ermənistan - Azərbaycan münaqişəsilə əlaqədar «Ermənistanın blokadası» xülyası ilə qərəzli şəkildə qəbul edilmişdir. Deməli, onun ləğvi də Ermənistan – Azərbaycan münaqişəsinin həlli ilə kauzal əlaqəlidir. Yəni, biz bütün səylərimizi məhz bu münaqişənin mahiyyətinin, səbəblərinin, törətdiyi ağır nəticələrin (insan qırğını, şəhər və kəndlərin dağıdılması, çoxsaylı qaçqın və köçgünlərin meydana

gəlməsi, ərazidəкi ciddi eкoloji əyintilər və s.) adeкvat şəкildə müəyyən edilməsini dünya dövlətləri və beynəlxalq təşкilatlar qarşısında qabarıq şəкildə qoymalıyıq. Belə кi, «Bizim əsas problemimiz Ermənistanın Azərbaycana təcavüzünü aradan qaldırmaq, işğal olmuş torpaqlarımızı azad etməк, Respubliкanın ərazi bütövlüyünü təmin etməкdir» [1, 23].

## ƏDƏBİYYAT


1. Əliyev H.Ə. Müstəqilliк yolu. Seçilmiş fiкirlər. Baкı: Azərbaycan Universiteti nəşriyyatı, 1997, 136 s.
2. Yeni bir yüzyıla girerкen. Türк – İslam Sentezi Görüşünde. Meselelerimiz - 2. 1970 - Temmuz. İstanbul: Aydınlar Ocağı, 1988. 349 s.
3. В.В.Мшвениерадзе, И.И.Кравченко и др. Власть: Очерки современной политической философии запада / Отв.ред. В.В.Мшвениерадзе (АН СССР, Ин-т философии). М.: Наука, 1989, 325 с.
4. Гришин А.В., Никольский Н.М. Системный анализ и диалог с ЭВМ в исследовании международных отношений. Некоторые вопросы теории и опыта. М.: Междунар. отношения, 1982, 320 с.
5. Дугин А. Основы геополитики. Геополитическое будущее России. Мыслить Пространством. Изд. 3-е, дополн. М.: АРКТОГЕЯ – центр, 1999, 928 с.
6. Нартов Н.А. Геополитика: Учебник для вузов. М.: ЮНИТИ, 1999, 359 с.
7. Поздняков Э.А. Системный подход и международные отношения. М.: Наука,1976, 157 с.
8. Социальные основы политики: Лекции по курсу «Политология» (Т.Х.Бербекова, Л.Б.Борисов, Ю.Ф.Давыдов и др.) / Под ред. С.И.Мавроди. М.: МАИ, 1991, 72 с.
9. США и региональные конфликты (80-е гг.) (В.А.Кременюк, Н.С.Беглова, В.Ю.Васильков и др.). М.: Наука, 1990, 157 с.


## УСЛОВИЯ ОПТИМАЛЬНОЙ ГЕОПОЛИТИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ

**В.Дж.ГАДЖИЕВА**

### РЕЗЮМЕ


Обеспечение геополитической информационной потребностей не только требует исследование происходящих явлений, но также ставит проблему создания научных центров для научного исследования исторических, социологических, географических, экономических, военных, политических и других проблем. Оптимальность геополитической деятельности обязывает изучение информации о природно-географической ситуации стран региона, экономической системы, экономических потенциалов данной страны, политической картине, демографической ситуации, религиозно-конфециональной картине региональных стран, интересов соседних, особенно сильных государств.

Геополитическая концепция создается в основе информации о географических, этнодемографических параметров, исторических процессов. Геополитическая программа должна подготовиться на базе принципов геополитической концепции и служить реализации их. Этот уровень требует анализа всех имеющих информации.

## CONDITIONS OF THE OPTIMUM GEOPOLITICAL ACTIVITIES

**V.J.HACIYEVA**

**SUMMARY**

The investigation of the events is not enough to meet the demand for geopolitical information, it also requires the establisment of scientific circles for the investigation of such problems as historical, sociological, geographical, economical, military, political etc. The convenience of the geopolitical activity makes it necessary to study the natural-geographical situations of the countries in the region, their economic system and potensial, political picture, demography, religious-konfessional picture as well as the interests of the neighbouring countries, especially the strong ones.

Geopolitical conception is founded on the basis of information about ethnodemographical, geographical parameters, historical events. The geopolitical program must be made on the basis of principles of geopolitical conception and quarantee their realization and application. This stage requires the analysis of all the available information.